

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

**Sayı: 23 (22.934)**

***3 fevral 2018-ci il, şənbə***

***Gündəlik ictimai-siyasi qəzet***

**www.serqqapisi.az**

**Qiyməti 20 qəpik**


Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci il 2 fevral tarixli Sərəncamı ilə Azərbaycanda həmkarlar hərəkatının inkişafındakı xidmətlərinə görə bir qrup şəxs təltif edilmişdir. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının əməkdaşları da vardır.

**Novruzov Sucaxan Müseyib oğlu**

3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə,

**Abbasov Şirvan Əli oğlu**
**Əliyev Qafil Elbəyi oğlu**
**Əsgərov Faiq Fikrət oğlu**
**Hüseynov Yalçın Şulan oğlu**
**Kələşov İmran Əmiraslan oğlu**
**Qədimov Bəxtiyar Hüseyn oğlu**
**Rəcəbov Qadir Dadaş oğlu**
**Rzayev Teymur Yaqub oğlu**

"Tərəqqi" medalı ilə təltif edilmişlər.

## Görkəmli rəssam Şamil Qazıyevin 110 illik yubileyinin keçirilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

2018-ci il martın 30-da görkəmli rəssam, əməkdar incəsənət xadimi Şamil Həsən oğlu Qazıyevin anadan olmasının 110 illiyi tamam olur.

Şamil Qazıyev 1908-ci ildə qədim Azərbaycan şəhəri İrəvanda anadan olmuş, 1920-ci ildə ailəsi ilə birlikdə Naxçıvana köçmüşdür. 1929-cu ildə Bakı Rəssamlıq Məktəbini bitirən Şamil Qazıyev 1929-1932-ci illərdə Naxçıvan Pedaqoji Texnikumunda rəsm müəllimi, 1932-ci ildən sonra "Kommunist" qəzetində və "Şərq qapısı" qəzetində rəssam, Naxçıvan Dövlət Musiqili Dram Teatrında baş rəssam, 1939-1940-cı illərdə Naxçıvan Rəssamlıq Məktəbinin direktoru, 1948-1980-ci illərdə isə "Azərbaycan gəncləri" qəzetində rəssam işləmişdir.

Ömrünün 50 ilini Azərbaycan təsviri sənətinin və teatr rəssamlığının inkişafına həsr edən Şamil Qazıyev Naxçıvan teatrında 100-dən çox tamaşaya bədii tərtibat vermiş, teatrın inkişafında mühüm xidmətlər göstərmişdir.

Bəhruz Kəngərli realizm məktəbini davam etdirən Şamil Qazıyev qrafika, natürmort, peyzaj, portret janrlarında maraqlı əsərlər yaratmışdır. Rəssamın Naxçıvanın tarixi, təbiəti, adət-ənənələri, həyat və məişəti ilə bağlı çəkdiyi "Çoban", "Xırmanda", "Qalayçılar", "Dəyirman", "Lavaş yapanlar", "Qaçqınlar", "Çarıqçılar", "Öküzlərin nallanması", "Örtülü bazar", "Naxçıvan hamamı", "İnqilabaqədərki Naxçıvan", "Naxçıvanda köhnə həyət" kimi əsərlər keçmiş tariximizin və mədəniyyətimizin öyrənilməsi üçün olduqca mühüm əhəmiyyətə malikdir.

Şamil Qazıyevin Naxçıvan rəssamlıq məktəbinin inkişafındakı xidmətlərini nəzərə alaraq, Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1.Görkəmli rəssam Şamil Qazıyevin 110 illik yubileyi Naxçıvan Muxtar Respublikasında qeyd olunsun.

2."Görkəmli rəssam Şamil Qazıyevin 110 illik yubileyinin keçirilməsi ilə əlaqədar Tədbirlər Planı" təsdiq edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 1 fevral 2018-ci il*

## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidmətinin məlumatı

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti 2018-ci ilin yanvar ayında bir sıra qərarlar qəbul etmişdir.

Belə ki, Nazirlər Kabinetinin 2018-ci il 6 yanvar tarixli qərarları ilə "Naxçıvan Muxtar Respublikasında xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri", "Naxçıvan Muxtar Respublikasının daxili işlər orqanları əməkdaşlarının attestasiyasının keçirilməsi Qaydası", "Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı", 12 yanvar tarixli qərarları ilə "Naxçıvan Muxtar Respublikasında baza maliyyələşdirilməsinin subyektləri olan elmi müəssisə və təşkilatların Siyahısı", "Avtomobil Yolları" Məqsədli Büdcə Fondunun vəsaitinin muxtar respublika ərazisində ümumi istifadədə olan respublika və yerli əhəmiyyətli avtomobil yollarının saxlanması və istismarı üçün xərclənməsi Qaydaları" və 16 yanvar tarixli qərarı ilə "Naxçıvan Muxtar Respublikasının ali təhsil müəssisələrində Distant Təhsil Mərkəzi haqqında Nümunəvi Əsasnamə" təsdiq edilmişdir.

Nazirlər Kabinetinin 2018-ci il 17 yanvar tarixli qərarları ilə "Məktəbəqədər təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi"ndə, "Naxçıvan Muxtar Respublikasında sosial müavinətlərin, təqaüdlərin və kompensasiyaların təyin olunması üçün təqdim edilən sənədlərin rəsmiləşdirilməsi, baxılması və saxlanılması Qaydaları"nda, "Sərgi, qastrol səfərləri, bərpa işləri, təqdimat, beynəlxalq mədəniyyət tədbirlərinin keçirilməsi ilə əlaqədar mədəni sərvətlərin Naxçıvan Muxtar Respublikasından müvəqqəti ixracı Qaydası"nda, "Mədəni sərvətlərin idxalı, ixracı və Naxçıvan Muxtar Respublikasından tranzitlə keçirilməsi Qaydası"nda dəyişikliklər edilmiş və Naxçıvan Muxtar Respublikasında peşə hazırlığı, yenidən hazırlıq və ixtisasartırma dövründə vətəndaşlara verilən təqaüdün minimum məbləği təsdiq edilmişdir.

Bununla yanaşı, Nazirlər Kabinetinin 2018-ci il 19 yanvar tarixli qərarı ilə "Naxçıvan Muxtar Respublikasının dövlət məktəbəqədər təhsil müəssisələrində təhsilalanların sosial müdafiəsi Qaydası" təsdiq edilmiş, 25 yanvar tarixli qərarı ilə valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsinin yaxşılaşdırılması tədbirləri müəyyən edilmişdir. Həmçinin Nazirlər Kabinetinin eyni tarixli digər qərarları ilə "Pedaqoji profilli ixtisaslar üzrə ali və orta ixtisas təhsili müəssisələrini bitirmiş və ümumi təhsil müəssisələrində işə başlamış gənc mütəxəssislər üçün stimullaşdırıcı tədbirlərin müəyyən edilməsi və müəllimlərin müsabiqə yolu ilə işə qəbulunun aparılması haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2017-ci il 25 dekabr tarixli 150 nömrəli qərarında dəyişiklik edilmiş, "Sığortaolunanların və sığortaedənlərin işsizlikdən sığorta üzrə sığortaçıda qeydiyyatı Qaydası", "Naxçıvan Muxtar Respublikasında fərdi məşğulluq proqramının yerinə yetirilməsi Qaydası və hesabatın forması", "İşsizlikdən sığorta vəsaitlərinin uçotunun aparılması və hesabatın təqdim olunması Qaydası" və "Naxçıvan Muxtar Respublikasında sığorta ödənişinin verilməsi Qaydası" təsdiq edilmişdir. Sonuncu Qaydaya görə sığorta ödənişini almaq hüququna yalnız dövlət orqanının və ya hüquqi şəxsin ləğv edilməsi və ya işçilərin sayının və ya ştatların ixtisar edilməsi nəticəsində əmək münasibətlərinə xitam verilmiş və qanunvericiliklə müəyyən olunmuş qaydada Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidmətinin yerli orqanlarında işsiz kimi qeydiyyata alınmış sığortaolunanlar malikdirlər. İlk dəfə təyin olunan sığorta ödənişi işsizlik müddətinin davamlılığına uyğun olaraq ilk 2 təqvim ayı üçün - 100 faiz, 3-4-cü təqvim ayları üçün - 80 faiz, 5-6-cı təqvim ayları üçün - 70 faiz dərəcəsinə mütənasib şəkildə, lakin minimum sığorta ödənişinin məbləğindən az olmayaraq ödənilir.

Bundan başqa, Nazirlər Kabinetinin 2018-ci il 30 yanvar tarixli qərarı ilə "Sədərək Rayon Mərkəzi Xəstəxanası" publik hüquqi şəxsinin Nizamnaməsi" təsdiq edilmişdir.

Qeyd olunan normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktların Dövlət Reyestrində *(www.huquqiaktlar. nakhchivan.az)* tanış olmaq mümkündür.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin təşkilatçılığı ilə Gənclər Mərkəzində 2 fevral – Gənclər Gününə həsr olunmuş tədbir keçirilib.***

## Muxtar respublikada Gənclər Günü qeyd olunub





Tədbirdə Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov çıxış edərək ölkəmizdə, o cümlədən muxtar respublikamızda həyata keçirilən gənclər siyasətindən, bu sahədə əldə olunan nailiyyətlərdən danışıb. Bildirib ki, gənclərin intellektual səviyyəsinin yüksəldilməsi, dünyagörüşünün formalaşdırılması və asudə vaxtlarının səmərəli təşkili məqsədilə muxtar respublikamızda müxtəlif təyinatlı obyektlər tikilərək və ya əsaslı təmir olunaraq onların istifadəsinə verilib.

Diqqətə çatdırılıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında gənc istedadlara dövlət qayğısının artırılması haqqında" 2012-ci il 31 yanvar tarixli Fərmanı gənclərə göstərilən diqqət və qayğının məntiqi davamıdır. Bu fərmanla Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının "Qızıl kitabı" təsis edilib, müxtəlif sahələr üzrə fərqlənən istedadlı yeniyetmə və gənclərin sosial müdafiəsinin gücləndirilməsi, onların istedad və bacarıqlarının inkişaf etdirilməsi üçün əlverişli şərait yaradılıb. Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman Nazirliyi muxtar respublikada gənclər və idman siyasətini həyata keçirən dövlət orqanı kimi gənclərin asudə vaxtlarının səmərəli təşkil edilməsi, onların Vətənə məhəbbət, dövlətçiliyə sədaqət ruhunda tərbiyə olunması məqsədilə təkcə ötən il 140 tədbir keçirib ki, həmin tədbirlərdə 15 min 248 nəfər gənc iştirak edib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun icraçı direktoru Məmməd Babayev bildirib ki, bu gün muxtar respublikamızda gəncliyə göstərilən diqqət və qayğının nəticəsində, hərtərəfli biliyə, geniş dünyagörüşə, xalqımızın milli, əxlaqi, humanist, mədəni dəyərlərinə yiyələnən, millətini, Vətənini sevən, sağlam nəsil yetişməkdədir.

Qeyd olunub ki, muxtar respublikada gənclərin sosial-iqtisadi, ictimai-mədəni həyatda fəal iştirakı, asudə vaxtlarının səmərəli təşkili, onların intellektual potensialının inkişafı üçün reallaşdırılan layihələr Naxçıvan şəhərinin 2018-ci il üçün Azərbaycanın Gənclər Paytaxtı seçilməsini şərtləndirən əsas amillərdən olub. Naxçıvan şəhərinin Azərbaycanın Gənclər Paytaxtı olması bu sahədə görülən işlərin, həyata keçirilən layihələrin yeni müstəvidə davam etdirilməsinə təkan verəcək. Naxçıvan şəhərinin həm İslam Mədəniyyətinin Paytaxtı, həm də Gənclər Paytaxtı statusu daşıması muxtar respublikada bu istiqamətdə aparılan məqsədyönlü işlərin təzahürü kimi diqqəti cəlb edir.

Naxçıvan Muxtar Respublikası Ağsaqqallar Şurasının sədri Məmməd Məmmədov çıxış edərək deyib ki, bu gün muxtar respublikada gənclər siyasəti uğurla həyata keçirilir, gənclərin milli ruhda tərbiyəsi diqqət mərkəzində saxlanılır. Onların ictimai-siyasi, iqtisadi və mədəni həyatda fəal iştirakı, sosial problemlərinin həlli, gənclər siyasətinin bütün istiqamətləri üzrə müvafiq dövlət proqramlarının qəbul olunması, gənc istedadlara dövlət qayğısının artırılması, elm, təhsil, iqtisadiyyat, mədəniyyət, dövlət idarəçiliyi və digər sahələrdə gənclərin irəli çəkilməsi və xidmətlərinin yüksək qiymətləndirilməsi, bütövlükdə, muxtar respublikada gənclərlə iş sahəsində həyata keçirilən tədbirlərin əsasını təşkil edir.

Diqqətə çatdırılıb ki, Naxçıvan Muxtar Respublikasında gənclər yeni ideyaların təşəbbüskarı və dövlət idarəçiliyində aparıcı qüvvə kimi formalaşır, idman, elm, mədəniyyət, incəsənət və digər sahələrdə böyük nailiyyətlər əldə edirlər. Ən əsası isə muxtar respublika gəncləri dövlətçilik ənənələrini daim uca tutur, ulu öndər Heydər Əliyevin siyasi xəttinə sədaqət ruhunda böyüyürlər.

Çıxış edənlər gənclər üçün yaradılan şəraitə görə Ali Məclisin Sədrinə minnətdarlıqlarını ifadə ediblər.

Sonra Naxçıvan Muxtar Respublikasının ictimai həyatında və yaradıcılıq sahəsində fərqlənən istedadlı yeniyetmə və gənclər təşkilatçılar tərəfindən hədiyyələrlə mükafatlandırılıblar.

Tədbir Naxçıvan Musiqi Kollecinin "Gənclik" instrumental ansamblının konsert proqramı ilə davam etdirilib.

**Ceyhun MƏMMƏDOV**

## Ötən il muxtar respublikada 8 milyon 664 min manatdan çox kreditlər verilib

***Hər il olduğu kimi, 2017-ci ildə də sahibkarlıq fəaliyyəti dəstəklənərək, əlverişli biznes mühitinin yaradılması sahəsində tədbirlər davam etdirilib. Bu isə muxtar respublikanın istehsal potensialının daha da güclənməsinə gətirib çıxarıb.***

O da vurğulanmalıdır ki, düzgün kreditləşmə siyasəti olmadan sahibkarlıqda dayanıqlı fəaliyyəti təmin etmək mümkün deyil. Hazırda muxtar respublikada kreditlər üzrə tətbiq edilən faiz dərəcələrinin ən aşağı səviyyədə olması muxtar respublikanın kredit bazarında canlanma yaradıb. Bu iş ötən il də davam etdirilərək sahibkarlara 8 milyon 664 min manatdan çox kreditlər verilib, 60 yeni istehsal və xidmət sahəsi fəaliyyətə başlayıb, daha 36 hüquqi və 2015 fiziki şəxs dövlət qeydiyyatına alınıb.

Yaradılmış belə əlverişli şəraitin nəticəsidir ki, bu gün muxtar respublikada 368 növdə məhsul istehsal olunur, 344 növdə məhsula olan tələbat isə tamamilə yerli istehsal hesabına ödənilir.

**Xəbərlər şöbəsi**

# Demoqrafik inkişaf insan kapitalına qoyulan sərmayə ilə düz mütənasibdir

***Müasir dövrdə insan inkişafının demoqrafik aspektləri əhalinin sağlamlığı, doğum, ömür uzunluğu, yaşlaşma və digər məsələləri özündə cəmləşdirir. Bu inkişafın əsas meyarlarından biri layiqli yaşayış standartlarının göstəricisidir. Sosial-iqtisadi inkişaf nəticəsində əldə olunmuş əhalinin rifah səviyyəsi əmək potensiallarından səmərəli istifadə edilməklə məşğulluq səviyyəsi, işləyənlərin məhsuldarlığı, əhalinin gəlirləri, iş şəraiti və digər amillər, həmçinin ölkənin hər bir vətəndaşının ehtiyaclarını nəzərə almaqla dövlətin gəlirlərinin bölüşdürülməsi sisteminin səmərəliliyi ilə müəyyən olunur. Hazırda dünyada müşahidə edilən əhalinin sürətli artımı ətraf mühitə təsirin kəskin artması və insanların tələbatlarının çoxalması ilə ifadə olunur ki, bu da yoxsulluğun, iqtisadi geriliyin və ictimai qeyri-stabilliyin artmasına təsir göstərir. Eyni zamanda inkişaf etmiş ölkələrdə əhali sayının azalması və dünyada gedən yaşlaşma proseslərinin sürətlənməsi əmək resurslarının və davamlı inkişafda mühüm rol oynayan gələcək nəsillərin sayının azalması ilə nəticələnir.***



Qeyd edək ki, insanların iqtisadi ehtiyacları və davranışı həyatın müxtəlif mərhələlərində fərqlənir və əhalinin yaş-cins strukturunda baş verən dəyişikliklər ölkənin ümumi iqtisadi fəaliyyətinə əhəmiyyətli dərəcədə təsir göstərə bilər. Məsələn, gənc nəsil daha çox təhsil sahələrinə investisiyaları tələb edir, orta yaşda olan əhali qrupu məşğulluq sahələrinin aktiv iştirakçısıdır, yaşlı nəslin isə tibbi xidmətə və sosial təminata ehtiyacı vardır. Buna görə də gənc nəslin və uşaqların payı çox olan ölkələrdə iqtisadi inkişafın artım templəri daha çox müşahidə olunur.

Vurğulamaq lazımdır ki, ötən əsrin 90-cı illərində ölkəmizdəki məlum ictimai-siyasi durum həyatın bütün sahələrinə öz mənfi təsirini göstərmişdi. Bu təsirin fəsadları blokada vəziyyətinə salınmış Naxçıvan Muxtar Respublikasında daha çox hiss edilirdi. Müxtəlif sahələrin, sözün əsl mənasında, iflic vəziyyətinə düşməsi, təbii olaraq, muxtar respublikanın demoqrafik xəritəsində də mənfi dəyişikliklərə səbəb olmuşdu. Ancaq ötən müddət ərzində regionda həyata keçirilən mühüm tədbirlər qısa bir zamanda uğurlu nəticələrin əldə olunmasına imkan vermişdir. Az vaxtda, ancaq böyük sürətlə aparılan sosial-iqtisadi islahatlar, xüsusilə regionların, eyni zamanda ayrılıqda muxtar respublikada müxtəlif sahələrin inkişafı məqsədilə qəbul edilmiş dövlət proqramları və bu proqramların uğurlu icrası digər sahələr kimi demoqrafik sahədə də müsbət meyillərin yaranmasına səbəb olmuşdur. Demoqrafik sabitliyin qorunmasında əsas amil kimi əmək qabiliyyətli əhalinin məşğulluğunun təmin edilməsi dayanır. Muxtar respublikada əhalinin məşğulluğunun təmin edilməsi sahəsində indiyədək bir sıra mühüm tədbirlər həyata keçirilmiş, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”nın qəbulu isə bu sahənin inkişafında yeni mərhələ təşkil etmişdir. Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin məlumatına görə, 2017-ci ildə muxtar respublikada 2437 yeni iş yeri yaradılmışdır. Bunun 2382-si və ya 97,7 faizi daimi iş yerləridir. Əmək bazarının tələblərinə uyğun olaraq 2017-ci ildə Naxçıvan Regional Peşə Tədris Mərkəzində 403 nəfər peşə kurslarına cəlb edilmişdir. Bundan əlavə, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyindəki peşə-ixtisas təhsili müəssisələrində 3642 nəfər müxtəlif peşələrə yiyələnmiş, Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin Cəzaçəkmə Müəssisəsində 36 nəfər aşpaz köməkçisi, ağac üzərində oyma və bərbər peşələri üzrə təşkil edilmiş kurslarda iştirak etmişdir.

Ümumi daxili məhsul istehsalı və bu istehsalın hər bir nəfərə düşən pay həcmi iqtisadi inkişafın əsas göstəricilərindən hesab olunur. Qeyd edək ki, 2017-ci ildə muxtar respublikada 2 milyard 701 milyon 663 min manat dəyərində ümumi daxili məhsul əldə olunmuşdur ki, bunun hər bir nəfərə düşən həcmi 2016-cı illə müqayisədə 3,6 faiz artaraq 5 min 990 manat təşkil etmişdir.

Demoqrafik inkişafda əhalinin təhsil və səhiyyə ehtiyaclarının ödənilməsi prioritet təşkil edir. Son 20 ildə muxtar respublikada həyata keçirilən tikinti-quruculuq tədbirləri çərçivəsində bu iki sahəyə böyük investisiyaların qoyulması göz önündədir. Təkcə ötən il Naxçıvan Dövlət Universitetinin İqtisad fakültəsi üçün yeni korpus istifadəyə verilmiş, Naxçıvan Müəllimlər İnstitutunun binasının yenidən qurulması başa çatdırılmışdır. Bundan əlavə, Şərur şəhərində, Naxçıvan şəhərinin Tumbul, Şərur rayonunun Çəmənli, Ordubad rayonunun Üstüpü, Şahbuz rayonunun Kolanı kəndlərində tam orta məktəb binaları tikilərək, Şərur rayonunun Ələkli və Qarahəsənli, Babək rayonunun Payız və Gərməçataq kəndlərində isə tam orta məktəb binaları yenidən qurularaq istifadəyə verilmişdir. Əhalinin sağlamlığına gəlincə, onu demək kifayətdir ki, son 22 il ərzində muxtar respublikada 276 səhiyyə obyekti tikilərək, yaxud yenidən qurularaq istifadəyə verilmişdir.

Onu da vurğulamaq lazımdır ki, muxtar respublikada ahıl və sağlamlıq imkanları məhdud şəxslərə göstərilən dövlət qayğısı xüsusilə diqqət mərkəzindədir. Məsələn, statistikaya görə 2017-ci ilin sonuna muxtar respublikada 244 tənha ahıl və sağlamlıq imkanları məhdud şəxslərə evlərində sosial-məişət xidmətləri göstərilmiş, Naxçıvan Əlillərin Bərpa Mərkəzində sağlamlıq imkanları məhdud 265 nəfərin, Naxçıvan Uşaq Bərpa Mərkəzində 312 uşağın müalicəsi təşkil edilmişdir. Sağlamlıq imkanları məhdud 330 nəfər sanatoriya və müalicə pansionatlarına yollayışlarla təmin edilmiş, 336 nəfərə protez-ortopedik xidməti göstərilmiş, 300 nəfərə texniki reabilitasiya vasitələri verilmişdir. 2017-ci ildə 45 nəfərin ölkə daxilində müalicəsinə, 47 nəfərin isə sosial-məişət şəraitinin yaxşılaşdırılmasına köməklik göstərilmişdir. Bundan əlavə, 2017-ci ildə sağlamlıq imkanları məhdud 155 uşağın Ağbulaq İstirahət Mərkəzində istirahəti təmin olunmuşdur. Eyni zamanda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq olunmuş “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı” muxtar respublikada bu kateqoriyadan olan uşaqların təhsilinin təmin edilməsində və onların cəmiyyətə inteqrasiyasında böyük əhəmiyyətə malikdir. 2017-ci ildə Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin Defektoloji bölməsinin Şərur və Ordubad rayonlarında filialları yaradılmışdır.

Əldə olunmuş müsbət nəticələri digər sahələr üzrə də söyləmək mümkündür. Ancaq, zənnimizcə, oxucularımızın diqqətin bu fakta bir daha yönəltmək bəs edər ki, muxtar respublikanın sosial-iqtisadi mühitində əldə edilmiş uğurları bütün parametrləri ilə yenidən dəyərləndirə bilək. Belə ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədri olduğu “Caspian European Club” ölkədə həyata keçirilən iqtisadi islahatların və sosial siyasətin nəticələrini əks etdirən Azərbaycan Respublikası regionlarının illik investisiya reytinqini müəyyənləşdirmişdir. Naxçıvan Muxtar Respublikası ən yüksək ümumi bal toplayaraq investisiya reytinqində lider olmuşdur. Təşkilatın 18 parametr və 6 qrup üzrə (sosial-demoqrafik göstəricilər, sosial-iqtisadi vəziyyət, işgüzar mühit, infrastrukturun qurulması, insanların rifah halının artması və kənd təsərrüfatının inkişafı) hazırladığı təhlillər regionun hərtərəfli inkişafının ümumi mənzərəsini bir daha ortaya qoyur.

Hazırda bir sıra inkişaf etmiş və etməkdə olan ölkələrin demoqrafik mənzərəsində ən ağrılı proseslərdən biri əmək qabiliyyətli əhali sayının azalmasıdır. Çünki əmək qabiliyyətli yaşdan aşağı və yuxarı yaşlarda olan əhali qeyri-məhsuldar təbəqəni əks etdirir və onların saxlanılmasına böyük həcmdə resurs tələb olunur ki, bu da iqtisadi inkişaf tempini azaldır. Təbii ki, istənilən ölkədə yaşlı nəslin xüsusi çəkisi yüksək, əhali artımı azdırsa, bu yaş strukturu iqtisadi inkişafa ləngidici təsir göstərəcəkdir. Baxmayaraq ki, belə inkişaf etmiş ölkələrdə təhsil və səhiyyə xidmətləri lazımınca təşkil olunsa da, əhali sayının ləng artımı ümumi demoqrafik vəziyyətə təsirsiz ötüşmür. Ölkəmizdə, eləcə də muxtar respublikamızda isə bunun tam əksini söyləmək mümkündür. Məsələn, 2016-cı ilin əvvəlində Azərbaycanda əhalinin sayı 9706,5 min nəfər olmuş, əhali sayının illik artımı 120 min nəfərə yaxınlaşmışdır ki, bu da MDB məkanında ən yüksək göstəricilərdən biridir. Muxtar respublikamızda da iqtisadi və sosial sahələrdə qazanılmış uğurlar demoqrafik vəziyyətin daha da yaxşılaşmasını təmin etməkdədir. Belə ki, son illər muxtar respublikada əhali artımında müsbət miqrasiya ilə yanaşı, yeni doğulanların sayı da əsas rol oynamış, əhalinin sayı 2016-cı illə müqayisədə 3 min 759 nəfər artaraq 1 dekabr 2017-ci il tarixə 452 min 566 nəfər olmuşdur. Ümumilikdə isə əmək qabiliyyətli yaşda əhalinin yüksək çəkiyə malik olması və bu əhali qrupunun mövcud potensialından səmərəli istifadə olunması muxtar respublikada “demoqrafik divident”in yaranmasına öz töhfəsini verməkdədir.

✍ **Səbuhi HƏSƏNOV**

***Muxtar respublikada aqrar sahədə qazanılan uğurların səbəbi çoxdur. Bu baxımdan dövlət tərəfindən təsərrüfat sahiblərinə güzəştli kreditlərin, subsidiyaların verilməsi, eləcə də onların texnika, gübrə və kimyəvi vasitələrlə təmin edilməsi xüsusi qeyd olunmalıdır. Bütün bunlar kənd təsərrüfatı məhsulları istehsalının həcminin genişlənməsinə, eyni zamanda yerli məhsulların rəqabət qabiliyyətinin artmasına imkan verib. Ötən ilin statistik nəticələri deyilənləri əyani sübut edir. Belə ki, 2017-ci ildə 453 milyon 364 min 500 manat dəyərində kənd təsərrüfatı məhsulu istehsal olunub ki, bu da bir il öncəyə nisbətən 4 faiz çoxdur. Məhsul istehsalında fermer təsərrüfatlarının rolu böyükdür.***

# Çəkilən zəhmət öz bəhrəsini verir

Bu baxımdan Şərur rayonunda fəaliyyət göstərən belə təsərrüfatlar çoxdur. Yaradılan təsərrüfatlar birgə ailə və kollektiv əməyinə əsaslanır. Ötən il noyabr ayının 18-də “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində təşkil edilən “Ailə təsərrüfatı məhsulları” festivalında da gördük ki, fermer təsərrüfatları daxili bazarda xüsusi çəkiyə malikdir. Təqdirəlayiq haldır ki, həmin festivalda qadın sahibkarlarımızın da iştirakları təmin olunmuşdu.

Budəfəki yazımız məhz adıçəkilən festivalda fərqlənən qadın təsərrüfat sahiblərindən biri haqqındadır. Şərur rayonunun Aşağı Aralıq kəndində yaşayan Fərqanə Muxtarova bizimlə söhbətində dövlətimizin sahibkarlar üçün yaratdığı imkanlardan ürəkdolusu danışdı. O dedi ki, bu gün muxtar respublikada əlverişli biznes mühitinin formalaşması qadınların da sahibkarlığa olan meyillərini xeyli artırıb. Festivalda uğurlu iştirak edərək qalib adını qazanmasında dövlətimizin sahibkarlara göstərdiyi qayğı əsas rol oynayıb. Müsahibim hər bir təsərrüfat sahəsinin böyük zəhmət tələb etdiyini vurğulayaraq bildirir ki, bu gün çəkdiyimiz zəhmət hədər getmir. Bölgəmizdə təsərrüfatla məşğul olanlar kifayət qədərdir. Biz isə yetişdirdiyimiz məhsulları konservləşdirərək satmaqla məşğuluq. Hazırladığımız məhsulun təmiz və keyfiyyətli olmasına çalışırıq. Bunun nəticəsidir ki, ildən-ilə məhsullarımızı alanların sayı da artır.

Təsərrüfat sahibi deyir ki, festivala, əsasən, zirinc bitkisindən hazırladıqları məhsulları çıxarmışdı. Belə ki, vitrində bu qiymətli bitkinin mürəbbəsi, kompotu, şirəsi, turşusu xüsusi qablaşdırma halında nümayiş etdirilib. Məhsulların hazırlanması prosesi isə heç də asan başa gəlməyib. Başqa sözlə, təsərrüfat sahibi öz işçiləri ilə zirinc bitkisini toplamaq üçün Şərur rayonunda yerləşən dağətəyi zonalara üz tutub. Çəkilən zəhmət hesabına 80 kiloqram zirinc toplayıb, qurudaraq konservləşdiriblər. Bundan başqa, il ərzində həmərsin, kəklikotu, solmazçiçəyi və digər müalicəvi xüsusiyyətlərə malik bitkilərdən yığıb qurudurlar. Həmin bitkilərin bir çox xəstəliklərin müalicəsində geniş istifadə olunduğu məlumdur. Buna görə də həmsöhbətimiz bu bitkilərdən toplayıb həm özlərinin sağlamlığını təmin edir, həm də satışa çıxararaq yaxşı qazanc sahibi olur.

Fərqanə Muxtarova bildirdi ki, məşğul olduğu təsərrüfat işi təkcə müalicəvi bitkilərlə bağlı deyil. Belə ki, fermerə məxsus olan 0,5 hektar torpaq sahəsində küncüd, qarğıdalı, pomidor, badımcan, bibər, xiyar və digər tərəvəz məhsulları da yetişdirilir. Su sarıdan problemin olmaması bol məhsul tədarükünə imkan verir. Gələcəkdə əkin sahəsini genişləndirmək fikrində olduğunu vurğulayan təsərrüfatçı dedi ki, hansı sahədə çalışmağından asılı olmayaraq, gərək qarşına məqsəd qoyub o məqsəd uğrunda çəkdiyin zəhmətdən qorxmayasan. Qazanılan uğurun əsasında böyük zəhmət və yaradılan əlverişli şərait durur. İndi dövlətimiz bunun üçün təsərrüfat sahiblərinə hərtərəfli imkanlar yaradıb. Bizə isə zəhmətə qatlaşıb çalışmaq qalır.

✍ **Nail ƏSGƏROV**

# Əhalinin yerli məhsullara olan tələbatı ödənilir

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 8 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı”nın icrası Şahbuz rayon əhalisinin meyvə və tərəvəz məhsullarına olan tələbatının yerli istehsal hesabına təmin edilməsinə geniş imkanlar yaradıb. Həmçinin ərzaq məhsullarının da yerli istehsaldan əldə olunması istiqamətində rayonda mühüm tədbirlərin həyata keçirilməsi daxili bazarda məhsul bolluğuna səbəb olub.

Rayonda 2017-ci ildə 2659 hektar sahədə əkin aparılıb. Əkin sahəsinin 1834 hektarını dənli və dənli-paxlalılar (qarğıdalısız), 1 hektarını dən üçün qarğıdalı, 10 hektarını dən üçün günəbaxan, 164 hektarını tərəvəz bitkiləri, 9 hektarını ərzaq üçün bostan bitkiləri, 424 hektarını kartof, 139 hektarını çoxillik otlar, 64 hektarını birillik otlar, 14 hektarını əvvəlki illərdə əkilmiş çoxillik otlar təşkil edib. Sahələrdən 4993 ton dənli və dənli-paxlalılar (qarğıdalısız), 22,9 ton dən üçün günəbaxan, 7407 ton kartof, 2897 ton tərəvəz, 113 ton ərzaq üçün bostan məhsulları, 8162 ton meyvə, 182 ton üzüm toplanılıb.

Ötən il rayonda cari ilin məhsulu üçün 1408 hektar sahədə dən üçün payızlıq səpin aparılıb ki, bunun da 1356 hektarı buğda, 2 hektarı arpadır.



Kənd təsərrüfatının əsas sahələrindən olan heyvandarlığın inkişafının davamlı olaraq dəstəklənməsi iribuynuzlu mal-qaranın, xırdabuynuzlu heyvanların baş sayının artmasına müsbət təsir göstərib. Belə ki, 1 yanvar 2018-ci il tarixə rayonda bütün təsərrüfat kateqoriyalarında qaramalın sayı 21 min 845, qoyun və keçilərin sayı isə 117 min 941 baş olub.

2017-ci ildə rayonda diri çəkidə 3072 ton ət, 14 min 862 ton süd, 13 milyon 498 min 800 ədəd yumurta, 397 ton bal, 178,2 ton yun istehsal edilib. Ümumilikdə, ötən il kənd və balıqçılıq təsərrüfatlarında 50 milyon 299 min 700 manatlıq məhsul istehsal edilib.

Əkilən ərazilərin vaxtında suvarılması məqsədilə meliorasiya-irriqasiya sistemlərinin yeniləşdirilməsi ötən il də diqqət mərkəzində saxlanılıb, rayonun Kiçikoba kəndində suvarma boru xətlərinin tikintisi başa çatdırılıb.

**Xəbərlər şöbəsi**

*Tarixi abidələrimiz milli sərvətimizdir*

## Naxçıvanda İslam mədəniyyətinin mülki tikililəri – körpülər

***Naxçıvanın Cənubi Qafqazı Yaxın Şərqlə bağlayan qədim yolların kəsişmə nöqtəsində yerləşməsi bölgənin iqtisadi-mədəni inkişafında mühüm rol oynayıb. Tarixən müəyyən mədəni ənənələrə sahib olan Naxçıvanda İslam dininin qəbulu elm və mədəniyyətin müxtəlif sahələrində olduğu kimi, memarlıqda da intibah və çiçəklənməyə səbəb olub.***

“Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan edilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin Sərəncamında deyilir: *“Tarixən Yaxın və Orta Şərqin əzəmətli şəhərlərindən biri kimi Naxçıvan bütün böyük keçmişi ərzində İslam mədəniyyətinin çoxəsrlik nailiyyətlərinin layiqincə qorunub yaşadılmasında özünəməxsus rol oynamışdır”.*



Ləkətağ körpüsü



Qazançı körpüsü

Naxçıvan Muxtar Respublikasının ərazisində mövcud olan İslam mədəniyyəti nümunələri rəngarəngliyi və özünəməxsusluğu ilə fərqlənir. İslam mədəniyyətinə aid nümunələr arasında mülki tikintilərin xüsusi yeri vardır. Yaşayış, ticarət binaları, hamamlar, mədrəsələr və digərlərindən ibarət olan mülki tikintilər arasında körpülərin özünəməxsus yeri vardır. Orta əsrlərdə Naxçıvanın iqtisadi-mədəni inkişafını bunlarsız təsəvvür etmək mümkün deyildir. Yaşayış məskənlərinin dağlıq ərazidə yerləşməsi orta əsrlərin ən mühüm kommunikasiya vasitələrindən biri olan körpülərin tikintisini zəruri edib. Muxtar respublika ərazisində aparılan araşdırmalar göstərir ki, bu tip tikintilər vaxtilə daha çox olub, lakin onların çox az bir qismi günümüzədək salamat qalıb.

Muxtar respublikada olan körpüləri iki qrupa ayırmaq olar. Birinci qrupa aid körpülər Araz çayı üzərində salınıb və Azərbaycanın şimalı ilə cənubunu əlaqələndirib. Belə körpülərdən biri Culfa rayonunun Gülüstan kəndi yaxınlığında olub. Körpünün xarabalıqları indi də qalmaqdadır. Bu mülki tikili elmi ədəbiyyatda “Ziya-ül-Mülk körpüsü”, xalq arasında “İsgəndər körpüsü” də adlandırılıb. Orta əsr müəllifi Həmdullah Qəzvini “Nüzhət əl-Qülub” əsərində Mərənd tümənindəki Gərgər haqqında məlumat verərək yazır ki, “...onun yanında, Araz çayı üstündə Ziya-ül-Mülk Naxçıvani gözəl körpü tikmişdir. Bu xeyriyyəçilik sahəsində ən parlaq tikililərdən biridir”. Ziya-ül-Mülk Naxçıvaninin həyatı ilə bağlı məlumat olmasa da, Gülüstan körpüsü orta əsr Azərbaycan memarlığının ən gözəl nümunələrindəndir. Mənbələrin məlumatına görə, Əmir Teymur 1386-cı ildə Mərənd və Zər dərəsi istiqamətindən Naxçıvana gələrkən Ziya-ül-Mülk körpüsündən keçib.



Əlahi körpüsü

Qırmızı qumdaşından və əhəng məhlulundan istifadə edilməklə tikilən körpünün konstruktiv quruluşu inşaat texnikasının yüksək səviyyədə olmasından xəbər verir, seysmik davamlılığın və təbii fəlakətlərin nəzərə alındığını göstərir. Yalnız sahil dayağı və kiçik bir hissəsi salamat qalan körpünün divarlarında yağış sularının axması üçün kiçik mazğallar düzəldilib. Belə mazğallara Əlincəqalanın tikintisində də rast gəlmək olur. Bu, körpünün çoxəsrlik memarlıq ənənəsinə əsaslandığını sübut edir. Əmir Teymurun tarixçisi Şərafəddinin aşağıdakı təsvirini tədqiqatçılar Gülüstan körpüsünə aid edirlər: “Yonulmuş daşdan tikilmiş sarsılmaz möhkəmliyi olan yastı və düz körpü dünya körpülərinin ən gözəlidir. Daşlarının gözəlliyi, möhkəmliyi və özümlü düzümü bütün memarları təəccübləndirir; iki tağbəndi çox ucadır və enlidir, su azalanda ölçülərkən biri 60 gəz (18 metr), o biri 50 gəz (15 metr) idi; kiçik tağbəndin aşağı qurtaracağında karvansaray, körpünün iki ucunda isə qayalarda tayı olmayan gözəllikdə qapılar tikilmişdi”. Gülüstan körpüsünün sahil dayağı içərisində bir sıra yerləşgələr indi də qalmaqdadır. Körpünün sahil dayağına bitişik tikinti qalıqlarını isə tədqiqatçılar karvansaray hesab edirlər.

Körpünün tikilməsi XII-XIII əsrlərə aid edilir. Gülüstan körpüsünün yaxınlığında xalq arasında “Şah Abbas körpüsü” adı ilə tanınan ikinci bir körpü, onun yaxınlığında isə Araz çayının hər iki sahilində karvansaray var. Ehtimal ki, bu körpü Gülüstan körpüsünün dağılıb öz əhəmiyyətini itirməsindən sonra inşa edilib. Körpülər və karvansaraylar orta əsrlərdə Azərbaycanın, o cümlədən Naxçıvanın iqtisadi-mədəni və ticarət əlaqələrinin tənzimlənməsində mühüm rol oynayıb.

İkinci qrupa daxil olan körpülər həm Naxçıvan kəndlərinin bir-biri ilə əlaqələrini təmin edib, həm də digər ölkələrlə iqtisadi-mədəni əlaqələrdə müəyyən rol oynayıb. Belə körpülərdən Əlincəçay üzərində salınan Ləkətağ və Qazançı körpülərini, Gilançay və onun qolları üzərində salınan Biləv, Bist, Məzrə, Əlahi körpülərini, Arpaçay üzərindəki Dədəli körpüsünü və digərlərini göstərmək olar.

Ölkəmizin iqtisadi-mədəni həyatında mühüm rol oynayan körpülər başlıca olaraq daşdan və yüksək ustalıqla inşa edilib ki, bu da onların uzunömürlü olmasını təmin edib. Naxçıvanda inşa olunan körpülər Azərbaycanda daxili və beynəlxalq ticarətin inkişafında mühüm rol oynayıb. Elə buna görə də yerli hakimlər həmişə körpülərin tikinti və bərpasına böyük önəm veriblər.

Sonda qeyd edək ki, Naxçıvan Muxtar Respublikasında tarix və mədəniyyət abidələri dövlət qayğısı ilə əhatə olunub. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri cənab Vasif Talıbovun “Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşması işinin təşkili haqqında” 2005-ci il 6 dekabr tarixli Sərəncamına uyğun olaraq muxtar respublika ərazisindəki tarix və mədəniyyət abidələri, o cümlədən İslam mədəniyyəti abidələri qeydə alınaraq pasportlaşdırılıb. Hazırda İslam mədəniyyəti abidələrinin bərpası və tədqiqi muxtar respublikanın mədəni və elmi ictimaiyyətinin gündəlik işinə çevrilib. Son illərdə bərpa və tədqiq edilən Xanəgah Memarlıq Kompleksi, Əlincəqala, Gülüstan türbəsi, Yengicə hamamı, Qarabağlar Türbə Kompleksi və onlarla digər abidələr İslam mədəniyyəti abidələrinə göstərilən yüksək qayğı və diqqətin nəticəsidir.

***Ümidvarıq ki, tariximizin böyük bir hissəsini özündə əks etdirən və yaşadan İslam mədəniyyəti nümunələri bundan sonra da qayğı ilə qorunacaq və yaşadılacaqdır.***

**Vəli BAXŞƏLİYEV**
**AMEA-nın müxbir üzvü**

## Bəhruz Kəngərli yaradıcılığına aid 3 orijinal rəsm əsəri muzeyə təqdim olunub





***Fevralın 2-də Azərbaycan Milli İncəsənət Muzeyi tərəfindən görkəmli rəssam Bəhruz Kəngərli yaradıcılığına aid olan üç rəsm əsərinin Naxçıvan şəhərindəki Bəhruz Kəngərli Muzeyinə daimi olaraq təhvil verilməsi ilə əlaqədar təqdimat mərasimi keçirilib.***

Tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natəvan Qədimova bildirib ki, Azərbaycanda realist rəssamlığın əsasını qoyan Bəhruz Kəngərli incəsənətimizdə realist dəzgah boyakarlığının təşəkkülü, portret və mənzərənin müstəqil janr kimi formalaşmasında mühüm rol oynayıb. Onun yaratdığı rəsmlər, portretlər, mənzərələr, natürmortlar, süjetli kompozisiyalar, teatr dekorasiyaları, karikaturalar, qrafik əsərlər bunun gözəl nümunəsidir. Bu əsərlərin sayı 2000-ə yaxın olsa da, bu günə yalnız 500-ə qədəri gəlib çatıb.

Vurğulanıb ki, görkəmli sənətkarın sənət dünyasına, əbədiyaşar yaradıcılığına onun doğulub boya-başa çatdığı doğma Vətənində daim yüksək diqqət və qayğı göstərilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun “Bəhruz Kəngərlinin adının əbədiləşdirilməsi haqqında” 2001-ci il 15 fevral tarixli Sərəncamına əsasən Bəhruz Kəngərlinin Naxçıvan şəhərindəki məzarüstü abidəsi bərpa edilib, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin 1972-ci ildən fəaliyyət göstərən Sərgi Salonuna rəssamın adı verilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2001-ci il 22 may tarixli Sərəncamı ilə Bəhruz Kəngərli Muzeyi yaradılıb. Rəssamın Azərbaycan Milli İncəsənət Muzeyində saxlanılan 200-ə yaxın əsərinin orijinalları və yüksəkkeyfiyyətli surətləri çıxarılaraq muzeyə gətirilib. Hazırda muzeyin fondunda, ümumilikdə, 1214 eksponat vardır ki, bunlardan 384-ü ekspozisiyada sərgilənir. Bu əsərlərdən 58-i orijinaldır. Həmin əsərlərin 33 ədədi sulu boya, 5 ədədi yağlı boya, 4 ədədi tuş, 7 ədədi karandaş, 9 ədədi isə kömürlə çəkilib.

Nazir çıxışının sonunda qeyd edib ki, Bəhruz Kəngərli Muzeyinin ekspozisiyasının zənginləşdirilməsi məqsədilə görkəmli rəssamın 3 əsəri Azərbaycan Milli İncəsənət Muzeyindən gətirilərək muzeyimizə təqdim edilib. Rəsmlər sulu boya, tuşla çəkilib. Bunlardan 2-si uşaq portreti, digəri isə “Bağda qovaq ağacı” adlı mənzərə janrında olan rəsm əsərləridir. Rəssamın həyatının son illərində çəkilmiş bu əsərlər dəyərli sənət nümunələridir.

Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva “Bəhruz Kəngərlinin həyat və yaradıcılığı” mövzusunda çıxış edərək bildirib ki, Vətəninin başına gətirilən müsibətli hadisələr onun fırçasından kənarda qalmayıb. Rəssamın böyük qəlb ağrısı ilə yaratdığı, “Qaçqınlar” silsiləsinə daxil olan əsərlər bu gün də insanları düşündürür. Bu əsərlərdə mənfur ermənilərin törətdikləri vəhşiliklər sənətkarlıqla təsvir edilib.

Bəhruz Kəngərli Muzeyinin direktoru Səbinə Əlincəli muzeylərə göstərilən diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinə muzey əməkdaşları adından minnətdarlıq edib.

Bəhruz Kəngərli irsinin tədqiqatçısı, sənətşünas Nizami Alıyev Azərbaycan Milli İncəsənət Muzeyinin fondunda saxlanılan Bəhruz Kəngərlinin əsərləri, eyni zamanda muzeyə verilən üç əsər haqqında məlumat verib.

Sonda muzeyin ekspozisiyasına baxış olub.

**Əli RZAYEV**

***Tibbi xidmətin müasir standartlar səviyyəsinə yüksəldilməsi, vətəndaşların sağlamlığının etibarlı təminatı muxtar respublikada həyata keçirilən sosial siyasətin istiqamətlərindən biridir. Bu prinsip əsas götürülərək ən son yenilikləri özündə əks etdirən avadanlıqlarla təchiz olunmuş tibb ocaqlarının istifadəyə verilməsi muxtar respublikanın səhiyyə sisteminin müasirləşdirilməsi istiqamətində görülən işlərin tərkib hissəsidir. Bu tədbirlərin davamı olaraq bu il yanvarın 25-dən muxtar respublikanın sərhəd rayonu olan Sədərəkdə icbari tibbi sığortanın tətbiqinə başlanılıb.***

## İcbari tibbi sığortanın tətbiqinə başlanılıb

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2017-ci il mayın 3-də “Sədərək rayonunda icbari tibbi sığortanın tətbiqi ilə bağlı tədbirlər haqqında” Fərman imzalayıb. Ötən dövrdə bu məqsədlə bir sıra işlər görülüb, Rayon Mərkəzi Xəstəxanasında müasir avadanlıqlar quraşdırılıb, həkimlər təyin olunub. Yeni sistem ən müasir tələblərə uyğun qurulub. Sədərək rayonunda tibbi sığortanın tətbiqi sahəsində qazanılan təcrübə muxtar respublikanın digər rayonlarında da tətbiq olunacaq.

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin baş məsləhətçisi Vüsal Məmmədov bildirib ki, icbari tibbi sığortaya keçid, vətəndaşların tibbi xidmətlərə əlçatanlığını və keyfiyyətini artıraraq səhiyyə sisteminin maliyyə potensialını gücləndirəcəkdir. İcbari tibbi sığortanın baza zərfinə təcili və təxirəsalınmaz tibbi yardım, ilkin səhiyyə xidməti, ambulator müayinə və müalicə, stasionar müalicə, funksional-diaqnostik müayinələr, fizioterapevtik xidmətlər, laborator müayinələr, hamiləlik və doğuş xidməti, təcili vaksinasiyalar, uşaqların peyvənd təqvimi əsasında planlı vaksinasiyası, cərrahi əməliyyatlar və müxtəlif xəstəliklər üzrə dispanser müşahidələr daxildir.

Muxtar respublikada icbari tibbi sığortanın elektron qaydada həyata keçirilməsi üçün ***its.naxcivan.az*** internet saytı və “Səhiyyə informasiya idarəetmə sistemi” yaradılıb. Saytda onlayn sığortalanma, müraciət və qeydiyyat bölmələri istifadəyə verilib. Bu da əhalinin internet üzərindən birbaşa elektron qaydada sığortalanmasına, qeydiyyatdan keçməsinə və onlayn müraciətlərin aparılmasına imkan verəcəkdir.

Sığortaolunan vətəndaş İcbari Tibbi Sığorta Şəhadətnaməsinin nömrəsini daxil etməklə müayinə tarixçəsi, müayinənin gedişi və nəticələrinə dair məlumatları əldə edəcəkdir. Sığortaolunanlara hər 6 aydan bir ümumi müayinələrə cəlb olunmaları haqqında milli peyvənd təqvimi, dispanser nəzarətə ehtiyacı olan xəstəliklərin müayinəsi barədə SMS vasitəsilə məlumatlar göndəriləcəkdir.

İcbari tibbi sığortanın tətbiqi səhiyyə işçilərinin əməkhaqlarına da təsir edib. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamına əsasən Sədərək Rayon Mərkəzi Xəstəxanasına publik hüquqi şəxs statusu verilib və xəstəxananın işçilərinin aylıq əməkhaqları 2018-ci il fevralın 1-dən 50 faiz artırılıb.

Sədərək Rayon Mərkəzi Xəstəxanasında 23 kompüter quraşdırılıb, rayon əhalisi qeydiyyata alınıb, vahid məlumat bazası və server otağı yaradılıb. Bu da imkan verəcəkdir ki, hər bir həkim müayinə etdiyi xəstə haqqında məlumatı sistemdə yerləşdirə bilsin. Həmçinin xəstəxanada ən müasir texnoloji yenilikləri özündə birləşdirən aparatlar quraşdırılıb.

Xəstəxanada olarkən rayon və kənd sakinlərindən icbari tibbi sığorta ilə bağlı müraciətlərində fəallıq müşahidə etdik. Onlardan Sədərək kənd sakini Tahirə Qasımova, Qaraağac kənd sakini Məhərrəm Seyidov icbari tibbi sığortanın tətbiqinin əhalinin sağlamlığının qorunmasına dövlət qayğısının ifadəsi olduğunu bildirdilər.

İcbari tibbi sığortanın ilk olaraq Sədərək rayonunda tətbiqinin də mühüm əhəmiyyəti var. Çünki Sədərək rayonu sərhəd yaşayış məntəqəsidir. Bu da rayonun strateji əhəmiyyətini artırır. Bu gün dövlətimiz tərəfindən rayonun inkişafına xüsusi diqqət yetirilir, əhalinin sağlamlığının qorunması da diqqət mərkəzində saxlanılır.

Qeyd edək ki, icbari tibbi sığortanın tətbiqi səhiyyə sistemini inkişaf etdirəcək, bununla yanaşı, tibb sahəsində çalışanların sosial-iqtisadi rifahını artıracaq, səhiyyə sistemində əhaliyə göstərilən tibbi xidmətlərin müasir standartlara uyğun yenilənməsini təmin edəcəkdir. Bunun nəticəsində mərkəzləşmiş xəstəxanalarla paralel şəkildə rayon xəstəxanaları və kənd ambulatoriyaları da inkişaf etdiriləcək və bu da, öz növbəsində, mərkəzi xəstəxanaların xidməti yükünü böyük ölçüdə azaldacaqdır.

**Hüseyn ƏSGƏROV**

*Muxtar respublikada idman siyasətinin düzgün qurulduğunu bu sahədə qazanılmış uğurlu nəticələr də təsdiqləyir. İdmançılarımız hər il müxtəlif idman növləri üzrə keçirilən yarışlarda, turnirlərdə uğurlu nəticələr əldə edirlər. Bu sahədə qazanılan nailiyyətlər həm də Naxçıvanın ümumi inkişaf səviyyəsinin, iqtisadi potensialının yüksək olduğunu bir daha nümayiş etdirir. Həm idman obyektlərinin tikintisi, həm də muxtar respublikanın beynəlxalq yarışlara ev sahibliyi etməsi, idman sahəsindəki uğurlarımızın, regionda idman siyasətinin təbliğatçısı imicinin möhkəmlənməsinin əsasını təşkil edir.*

*Ötən ilin uğurları*

# Qazanılan nailiyyətlərin təməlində uğurlu idman siyasəti dayanır



Yaradılan şərait gənc nəslin idman obyektlərindən necə istifadəsi sualını da ortaya çıxarır. Fərəhlə deyə bilərik ki, bu gün muxtar respublikada idman auditoriyası genişdir və bu sahənin çoxşaxəliliyi bazanın zəngin olmasından irəli gəlir. Geridə qoyduğumuz ildə idman idarələri arasında olan sağlam rəqabət bu sahənin gündən-günə inkişafına, insanların rəğbətinə səbəb olur.

Belə ki, ötən il Şərur Rayon Gənclər və İdman İdarəsi bir sıra uğurlu nəticəyə imza atıb. Şərurlu idmançılar muxtar respublika birincilikləri ilə yanaşı, ölkədaxili çempionatlarda da mübarizə aparıblar. Gənclər və İdman Nazirliyinin Şərur rayon ağır atletika bölməsinin idmançısı Tərminxan Babayev ölkə birinciliyində qalib adını qazanıb. O, eyni zamanda 6 dəfə Avropa rekordunu təkrarlayaraq qitə birinciliyinin qalibi olub. Həmçinin kikboksinq üzrə ölkə birinciliyində Şərur idmançıları mükafatçılar sırasına düşməyi bacarıblar. Muxtar respublika birinciliklərində idmançılar, ümumilikdə, 16 dəfə fəxri kürsüdə özlərinə yer tapıblar ki, bunların da 13-ü birincilikdir.

Sədərək idmançılarının uğurlu çıxışları da diqqətdən yayınmayıb. İlk olaraq rayonun voleybol komandası ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə



həsr edilmiş muxtar respublika turnirində ikinci yeri əldə ediblər. Rayonda idmançıların ötən il ərzində daha çox fərdi idman növlərinə üstünlük verməli qazanılan uğurlardan da aydın görünür. Belə ki, muxtar respublika turnirlərində boksdan 3 (1 gümüş, 2 bürünc), karate-do idman növündən 5 (1 qızıl, 3 gümüş, 1 bürünc), yüngül atletikadan isə 1 (qızıl) medal əldə ediblər. Eyni zamanda Azərbaycan birinciliyində çıxış edən Sədərək atletləri 2 qızıl və 1 gümüş medal qazanıblar.

Kəngərli rayonunu təmsil edən komandalar "Azərbaycanın İntellektual Birincisi" layihəsinin Naxçıvan Muxtar Respublika birinciliyində qalib gələrək bu rayonda idmana göstərilən qayğıdan bəhrələndiklərini bir daha sübuta yetiriblər. Kollektiv növlərdən "Şahin" hərbi-idman oyunlarında rayon komandası üçüncü yerlə kifayətlənib. Muxtar respublika və ölkə birinciliklərində isə Kəngərli idmançıları daha çox boks və yüngül atletika növlərində çıxış ediblər. Boksda qazanılan 3 uğurun biri 1-ci yer olubsa, yüngül atletikada Güllü Cəfərova 200-400 metr məsafədə Azərbaycan birinciliyinin qalibi olub. Babək rayonu idmançılarının ölkədaxili və beynəlxalq turnirlərdə qazancları daha çox olub. Belə ki, keçirilən yarışlarda rayon idmançıları 10-dan çox medal qazanıblar ki, bunun da 3-ü birinci yerdir.

Digər rayonlardan fərqli olaraq Culfa rayonunda daha çox qazanılan uğurlar individual idman növlərində olub. Belə ki, Bakı, Tovuz, Şirvan və Türkiyənin Sakarya şəhərlərində keçirilən cüdo üzrə birinciliklərdə idmançılar üç qızıl, iki gümüş, dörd bürünc medal qazanıblar. Cüdoçular muxtar respublika birinciliklərində isə 31 dəfə fəxri kürsüdə özlərinə yer tapıblar – 13 qızıl, 8 gümüş, 10 bürünc medal. Bununla yanaşı, Culfa idmançıları boks üzrə muxtar respublika birinciliyində



2-si qızıl, 3-ü bürünc olmaqla 5, şahmat turnirində isə 1-i qızıl, 2-si gümüş olmaqla 3 medal qazanıblar. Kollektiv göstəricilərə gəlincə, culfalı idmançılar muxtar respublika birinciliklərində komanda hesabında 2 dəfə fəxri kürsüyə qalxıblar ki, onlardan da biri birinci yerdir.

Ordubad rayonunun atletləri ölkə birinciliklərində uğurlu çıxış edərək mükafata layiq görülüblər. Bununla yanaşı, zəka sahibi Seyid Hüseyn "Naxçıvan – 2017" Beynəlxalq Şahmat Festivalında və Child tournament "Vugar Gashimov birthdays Memorial U-12 – 2017" beynəlxalq şahmat turnirində, Uğur Həsənli isə Azərbaycan çempionatının seçmə turnirində böyük uğura imza atıb. Ümumiyyətlə, Ordubad rayonunda idmançıların individual çıxışları daha böyük nəticələrlə yekunlaşıb. Rayonun 9 idmançısı 2017-ci ildə müxtəlif idman növlərində birinci yerə layiq görülüblərsə, 5 idmançı ikinci, 6 idmançı isə üçüncü olub. Kollektiv idman növlərində isə Gənclər və İdman İdarəsinin yetirmələri müxtəlif növlərdə mükafatlar qazanıblar.

Şahbuz Rayon Gənclər və İdman İdarəsinin müsbət yöndə gördüyü işlər əldə edilən nəticələrlə özünü açıq şəkildə büruzə verir. Kollektiv idman növlərində futbol (10-12 və 11-13 yaşlılar), basketbol, futzal komandaları muxtar respublika çempionatlarında mükafatçılar sırasına düşüblər. İndividual növlərdən isə güləş və armresling növlərində qazanılan nailiyyətlər daha çoxdur. Ümumiyyətlə, rayon idmançıları 2017-ci ildə 7 dəfə fəxri kürsüyə qalxmağa nail olublar.

Ötən il muxtar respublika birinciliklərində ən böyük uğuru Naxçıvan şəhərinin idmançıları qazanıblar. Keçirilən yarışlarda şəhər idmançıları, ümumilikdə, 308 dəfə mükafat qazananlar siyahısında olublar ki, daha çox uğur qazanan idman növləri boks, karate-do, güləş, kikboksinq, MMA, şahmat və futboldur. "Vətənin müdafiəsinə hazıram" poliatlon çoxnövçülüyü üzrə ölkə birinciliyində isə Naxçıvan



şəhər 16 nömrəli tam orta məktəbin komandası birinci olub. "Sərhəd" hərbi-idman oyunlarında isə 2 nömrəli tam orta məktəbin komandası ölkə birincisi adını qazanıb. Ölkədaxili və beynəlxalq turnirlərdə şəhər idmançıları 120 müxtəlif əyarlı medal qazanıblar ki, bunların 54-ü qızıl, 23-ü gümüş, 43-ü isə bürüncdür.

**Ceyhun MƏMMƏDOV**


## Fermerlər və sahibkarların nəzərinə

"Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti güzəştli şərtlərlə dəyərinin 50 faizi ödənilməklə lizinqə verilməsi nəzərdə tutulan texnika və avadanlıqların satışını təşkil edir.

| S/№ | Texnikanın adı | Markası | Buraxılış ili | Dəyəri | Satış dəyəri |
|---|---|---|---|---|---|
| 1. | Kombayn (Sampo) | SR-2055 | 2000 | 30131,98 | 15066,00 |
| 2. | Kombayn (Sampo) | SR-2055 | 2000 | 29996,62 | 14999,00 |
| 3. | Kombayn (Sampo) | SR-2055 | 2000 | 43632,71 | 21816,00 |
| 4. | Kombayn | 4LZ-3(3588) | 2005 | 35352,98 | 17677,00 |
| 5. | Kombayn | 4LZ-3(3588) | 2005 | 35017,61 | 17509,00 |
| 6. | Kombayn | 4LZ-3(3588) | 2005 | 35384,40 | 17692,00 |
| 7. | Kombayn | 4LZ-3(3588) | 2005 | 31245,77 | 15623,00 |
| 8. | Kombayn | 4LZ-3(3588) | 2005 | 36290,87 | 18146,00 |
| 9. | Kombayn | 4LZ-3(3588) | 2005 | 33844,81 | 16923,00 |
| 10. | Presvuran | PPT-041 | 2005 | 16333,36 | 8167,00 |
| 11. | Presvuran | PPT-041 | 2005 | 16473,38 | 8237,00 |
| 12. | Presvuran | PPT-041 | 2005 | 15949,50 | 7975,00 |
| 13. | Kartofəkən | AB-2F | 2007 | 7309,64 | 3655,00 |
| 14. | Kartofəkən | AB-2F | 2007 | 6730,17 | 3365,00 |
| 15. | Kartofəkən | AB-2F | 2007 | 7341,85 | 3671,00 |
| 16. | Kartofəkən | AB-2F | 2007 | 7266,75 | 3633,00 |
| 17. | Kartofçıxaran | TD-22 | 2007 | 5469,80 | 2735,00 |
| 18. | Kartofçıxaran | TD-22 | 2007 | 5337,27 | 2669,00 |
| 19. | Kartofçıxaran | TD-22 | 2007 | 5480,97 | 2741,00 |
| 20. | Kartofçıxaran | TD-22 | 2007 | 5460,34 | 2730,00 |
| 21. | Kartof kultivatoru N1 | BD-2 | 2007 | 6498,0 | 3249,00 |
| 22. | Kartof kultivatoru N1 | BD-2 | 2007 | 6500,0 | 3250,00 |
| 23. | Kartof kultivatoru N1 | BD-2 | 2007 | 6455,03 | 3228,00 |
| 24. | Kartof kultivatoru N2 | CF-3 | 2007 | 2284,07 | 1137,00 |
| 25. | Kartof kultivatoru N2 | CF-3 | 2007 | 2286,73 | 1143,00 |
| 26. | Kartof kultivatoru N2 | CF-3 | 2007 | 2265,00 | 1133,00 |
| 27. | Kartof kultivatoru N2 | CF-3 | 2007 | 2285,00 | 1143,00 |

*"Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti*
*Ünvan: Naxçıvan şəhəri, Xətai məhəlləsi*
*Telefonlar: 036-550-61-03; 545-15-69.*












ŞƏRQ *qapısı*

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Səbuhi Həsənov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1490. Sifariş № 109